**Əlizadə C. Ş.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2020.62.21-30**
**UOT: 309.8**

# Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası problemləri

**Xülasə:** Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin cəmiyyətə inteqrasiyası proqramları bu şəxsləri cinayətlərdən çəkindirmək, həmçinin yenidən cinayət əməlinin törədilməməsi üçün lazım ola biləcək yardım və nəzarəti təmin etmək məqsədi daşıyır**.** Qeyd edə bilərik ki, penitensiar müəssisələrdən cəza çəkməkdən azad edilmiş şəxslərin cəmiyyətə inteqrasiyasının mühüm vasitələri kimi "sosial adaptasiya" və "reabilitasiya" anlayışları iştirak edir və onlar fərqli mənalar kəsb edir. Belə ki, sosial adaptasiya şəxsiyyətin sosiallaşmasının mühüm mexanizmi kimi çıxış etdiyi halda, reabilitasiya isə, artıq itirilmiş iş qüvvəsinin bərpa olunması üzrə fəaliyyəti özündə əks etdirir.

Məhkum olunmuş şəxslərin islah olunması, azadlığa çıxdıqdan sonra cəmiyyətin bərabərhüquqlu vətəndaşı kimi yaşaması baxımından sosial adaptasiya vacib şərtdir. Sosial adaptasiya anlayışı cəza çəkmiş şəxsin azadlığa çıxdıqdan sonra yenidən cinayət törətmədən insan şərəfinə layiq bir həyat sürməsi üçün həyata keçirilən fəaliyyətləri ifadə edir. Almaniya Konstitusiya Məhkəməsi isə sosial adaptasiyanı cəza çəkmiş şəxsin yenidən cəmiyyətin bir parçası olması kimi ifadə edir.Penitensiar sistemdəki iş təcrübəsi göstərir ki, residiv cinayətlərdəki artım cəza çəkməkdən azad edilmiş şəxslərin dəyişmiş həyat şəraitinə sosial adaptasiyasından bilavasitə asılıdır.

**Açar sözlər:** penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər; inteqrasiya prosesi; sosial adaptasiya.

Qeyd edə bilərik ki, cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası şəxsiyyətin və sosial mühitin mürəkkəb qarşılıqlı əlaqə prosesi olub yeni sosial rollar mənimsəməsi ilə xarakterizə olunur. Cəza çəkməkdən azad edilmiş şəxslər müxtəlif münasibətlərə daxil olur, yeni rollar mənimsəyir, yeni əmək kollektivinə daxil olur, öz davranışını ictimai maraqlarla uzlaşdırır, yeni şərtlərə adaptasiya olunur. Məhz azadlıqdakı yeni şərtlərə adaptasiya dövründə azadlıqdan məhrumetmə yerlərində formalaşan islah təsirinin nəticələri yoxlanılır və möhkəmlənir.

Cəza çəkməkdən azad edilmiş şəxsin sosial adaptasiyası özündə bir çox fəaliyyətləri birləşdirir. Bu fəaliyyətlərin həyata keçirilməsində iki başlıca model mövcuddur:

- Tibbi model məhkum olmuş şəxsə tibbi üsullarla yanaşır.
- Qarşılıqlı təsir modelində isə terapiya və ünsiyyətin üstünlük təşkil etdiyi bir üsul tətbiq edilir.

S.K.Qreçanyuk qeyd edir ki, sosial adaptasiya öz-özünə davam edən proses deyildir. Bir sıra hallarda, xüsusən də ətraf mühit cəza çəkməkdən azad edilmiş şəxsləri kifayət qədər dəstəkləmədikdə və onlara mənfi münasibət göstərdikdə bu proses arzuolunmaz istiqamətdə inkişaf

♦**Əlizadə Cavid Şirzad oğlu** – Azərbaycan Universitetinin II kurs magistr tələbəsi, Azərbaycan. E-mail: cavid6455@mail.ru

edə bilər. Ona görə də cəza çəkməkdən azad olan şəxslərin sosial adaptasiyası problemi keçmiş məhkumun sosiumun həyat fəaliyyətinə normal surətdə daxil olmasının lazimi şəkildə təmin edilməsi probleminə çevrilir [6, s. 128].

Cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası və cəmiyyətə inteqrasiyası sosial təminat, məşğulluq orqanları və ictimai təşkilatların müvafiq yardımı və dəstəyi olmadan qeyri-mümkündür. Cəza çəkməkdən azad edildikdən sonra həmin şəxslərin normal həyat tərzi keçirmələrinə şərait yaradan sosial-hüquqi statusa malik olmaları zəruri şərtdir. Belə statusun təmin edilməsində isə göstərilən orqan və təşkilatların üzərinə mühüm iş və funksiyalar düşür. Bu baxımdan cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası ilə bağlı problemlər penitensiar müəssisələr, daxili işlər orqanları, sosial yönümlü ictimai təşkilatlar və məşğulluq birgə əməkdaşlığı şəraitində daha səmərəli həll oluna bilər. Eyni zamanda, cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası prosesində dövlət orqanlarının koordinasiyası mühüm rol oynayır. Əks halda, cəza çəkməkdən azad olan şəxslər sosial yardımsız qalırlar.

Adaptasiya prosesi məhkumun özünün azadlıqdakı həyata hazırlıq səviyyəsi ilə bağlıdır. Ona görə də məhkumların azadlıqda baş verən hadisələr barədə yüksək məlumatlılığı zəruri şərtdir. Bu baxımdan cəzaçəkmə müəssisəsinin rəhbərliyi məhkumlara kifayət qədər geniş məlumatlar verməli və ya bunun üçün əlverişli şərait yaratmalıdırlar.

İ.A.Konalovanın fikrincə, cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası prosesinin ən mühüm göstəricisi – şəxsiyyətlə ətraf aləm arasında qarşılıqlı əlaqəyə nail olunması, cəza təyin edilən andan başlayan və onun icrası dövründə davam edən islah və tərbiyə prosesinin yekunlaşdırılması məqsədilə xarici mühit faktorlarının cəza çəkməkdən azad olan şəxslərin şəxsiyyətinə müsbət təsirinin təmin edilməsi üçün fərdlə xarici sosial mühitin əlverişli və qarşılıqlı şərtlənmiş yaradılmasıdır [9, s. 28].

Müasir dövrdə həyat elə sürətlə inkişaf edib dəyişir ki, müəyyən müddət azadlıqdan məhrumetmə yerlərində olan insanlar azadlığa çıxdıqdan sonra faktiki olaraq yeni mühitlə, yeni həyat şəraiti və yeni sosial dəyərlərlə qarşılaşırlar. Ona görə də İ.X.Qolovçenkon və P.P.Mixaylenkonun haqlı olaraq göstərdiyi kimi, cəzasını çəkdikdən sonra azadlığa çıxan şəxs müəyyən müddət ərzində özünəməxsus adaptasiya vəziyyətində olur. İnsan ciddi rejim qaydalarına tabe olduğu azadlıqdan məhrumetmə yerində olan şərtlərdən xeyli dərəcədə fərqlənən yeni həyata uyğunlaşır [7, s. 63].

Məhkumların islah təcrübəsi göstərir ki, adaptasiya dövrü şəxsiyyətin daxili dəyişikliyi ilə bağlıdır. Bu dəyişikliyin dərəcəsi şəxsiyyətin əvvəlki anticəmiyyət yönümü hakim olaraq qalır. Bu, həmin şəxslərin azadlıqdakı həyata psixoloji, mənəvi və praktiki baxımdan hazır olmaması ilə bağlı ola bilər.

Qeyd edə bilərik ki, cəza çəkməkdən azad edilmiş şəxs uğurlu adaptasiya olunduqda məhkumluq sosial-hüquqi mənada başa çatır. Bu baxımdan Azərbaycanda cəza çəkməkdən azad edilmiş şəxslərin ilk növbədə yenidən təkrar cinayət törədərək həbsxanaya girməsinin qarşısının alınması məqsədilə həmin şəxslərin sosial adaptasiyanın həyata keçirilməsi kriminogen vəziyyətin yaxşılaşmasına, cinayətkarlığın profilaktikasına ciddi təsir göstərə bilər.

Sosial adaptasiya ilə birbaşa əlaqəli qərarı özündə əks etdirən mətn Avropa Penitensiar Qaydalarıdır. Qaydalar çərçivəsində ilk hökm 107-ci maddədə yer alır və azadlığa çıxmanın ardından həyata keçirilməli fəaliyyətləri tənzimləyir.Avropa Şurası Nazirlər Komitəsinin 3 saylı Tövsiyə Qərarı olan Avropa Penitensiar Qaydalarının107-ci maddəsi bütün məhbusların azadlığa çıxandan sonra cəmiyyətə və ailə həyatına uyğunlaşmalarının asanlaşdırılmasını, üzün müddət həbs

cəzasına məhkum olanların təsirli bir sosial dəstəyi də əhatə edən yoxlama altında şərtlə azadlığa çıxmasını və azadlığa çıxanların cəmiyyətdəki yerlərini tuta bilmələrini təmin etməklə sosial xidmətlər və digər təşkilatlarla yaxın işbirliyi içərisində olmasını tövsiyyə edir [1].

Məhbusların vəziyyətinin yaxşılaşdırılması üçün BMT Minimum Standart Qaydalarının 79, 80 və 81-ci maddələri məhbusların azadetmədən sonra cəmiyyətəadaptasiyasını və buna dövlət, QHT və özəl qurumların, təşkilatların yardım etməsini, onların məşğulluğu məsələlərini tənzimləyir [3].

Sosial adaptasiya mürəkkəb və çoxcəhətli proses olmaqla çoxsaylı faktorlardan asılıdır. N.İ.Titova görə məhkumların islah edilməsi prosesi pedaqogika və psixologiyanın prinsiplərinə əsaslanır [5, s. 179]. Tədqiqatlar göstərir ki, xeyirxahlıq, əməksevərlik, ünsiyyətlilik, mehribanlıq kimi xüsusiyyətlər uğurlu adaptasiya şansını artırır. Azadlıqdan məhrumetmə yerlərində olma insanlarda nevrozluq, özünəqapanma, aqressivlik, özünə inamsızlıq kimi əks keyfiyyətlərin formalaşmasına gətirib çıxarır. Yalnız bu keyfiyyətləri dəf etdikdən sonra cəmiyyətdə normal yaşamaq olar. Ona görə də cəzaçəkmə müəssisələrində psixoloqların və sosial işçilərin fəaliyyəti belə mənfi keyfiyyətlərin formalaşmasının qarşısını almağa yönəlməlidir [8, s. 492].

Hər il cəza müddətinin başa çatması vaxtından əvvəl azadlığa buraxılma, amnistiya, əfvetmə və s. nəticəsində çoxsaylı məhkumlar penitensiar müəssisələrdən azadlığa çıxırlar və həmin şəxslər cəmiyyətə adaptasiya və inteqrasiya prosesində çoxsaylı maneələrlə qarşılaşırlar. Cəza çəkməkdən azad edilmiş şəxslərin cəmiyyətə sosial adaptasiyası sahəsində tədbirlərin həyata keçirilməsinin təşkilati-hüquqi əsaslarını müəyyən etmək və bu sahədə yaranan münasibətləri tənzimləmək məqsədilə 31 may 2007-ci il tarixli "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikasının qanunu qəbul edilmişdir. Qanuna görə, penitensiar müəssisələrdə cəza çəkməkdan azad edilmiş şəxslərin sosial adaptasiyası - penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial mühitə uyğunlaşdırılınası, hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunması, bu şəxslər tərəfindən törədilə biləcək yeni cinayətlərin və onlara təsir göstərə biləcək kriminogen amillərin qarşısının alınması məqsədilə həyata keçirilən hüquqi, iqtisadi, təşkilati və sosial-psixoloji tədbirlər sistemidir.Qanunun məqsədi penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin hüquqlarını təmin etməkdən, bu şəxslər tərəfindən residivin qarşısını almaqdan, azad edilmiş şəxslərin uğurlu sosial adaptasiyasının təmin olunması üçün qanunvericilik və normativ hüquqi baza yaratmaqdan, bu şəxslərə əmək və məişət şəraiti yaradılması məsələlərini həll etməkdən, itirilmiş faydalı sosial əlaqələri və münasibətləri bərpa eləməkdən ibarətdir.Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər (bundan sonra-cəza çəkməkdən azad edilmiş şəxs) qanunvericilikdə müəyyən edilmiş əsaslarla müəyyən müddətə azadlıqdan məhrumetmə və ömürlük azadlıqdan məhrumetmə növündə cəzaları çəkməkdən azad edilmiş şəxslər başa düşülür [4].

Qanun, cəza çəkməkdən azad edilmiş və sosial adaptasiyaya ehtiyacı olan Azərbaycan Respublikasının vətəndaşlarına, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə, habelə digər dövlətlərin penitensiar müəssisələrində cəza çəkməkdən azad edildikdən sonra üç ay müddətində Azərbaycan Respublikasına daimi yaşamaq üçün qayıtmış Azərbaycan Respublikasının vətəndaşlarına şamil olunur. Həmçinin, yalnız qanunvericiliklə müəyyən edilmiş qaydada fəaliyyət qabiliyyəti olmayan hesab edilən və ya fəaliyyət qabiliyyəti məhdudlaşdırılan şəxslər barəsində bu qanunda nəzərdə tutulmuş tədbirlər məhdudlaşdırıla bilər. Cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası qanunçuluq, humanizm, sosial ədalət, ünvanlılıq, könüllülük kimi prinsiplərə əsaslanır.

Cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası üzrə tədbirləri Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Təhsil Nazirliyi və Səhiyyə Nazirliyi öz səlahiyyətləri daxilində həyata keçirirlər. Həmçinin, sosial adaptasiya tədbirlərinin həyata keçirilməsində bələdiyyələr, fiziki şəxslər, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq hüquqi şəxslər, o cümlədən qeyri-hökumət təşkilatları könüllülük əsasında iştirak edə bilərlər. Cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası sahəsindəki fəaliyyət Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əlaqələndirilir.

Qanuna əsasən, cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası məqsədilə aşağıdakı tədbirlər həyata keçirilir:

- cəza çəkməkdən azad edilmiş şəxsləri qeydiyyata almaq, onlarla hazırlıq işlərini aparmaq;
- sosial adaptasiya mərkəzləri yaratmaq;
- daimi yaşayış sahəsi olmayan şəxsləri bu Qanunla müəyyən olunmuş müddətdə müvəqqəti yaşayış yeri ilə təmin etmək;
- cəza çəkməkdən azad edilmiş şəxslərin peşə hazırlığı işinin təşkili, onların işlə, tibbi və sosial yardımla təmin edilməsi sahəsində müvafiq tədbirləri həyata keçirmək;
- təhsil almalarına şərait yaratmaq;
- şəxsiyyətini təsdiq edən və digər lazımi sənədlərlə təmin etmək;
- cəza çəkməkdən azad edilmiş və sosial adaptasiyaya ehtiyacı olan şəxslərə birdəfəlik pul müavinəti vermək;
- cəza çəkməkdən azad edilmiş şəxslərə hüquqi, psixoloji və informasiya yardımı göstərmək.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi orqanı penitensiar müəssisələrin müdiriyyəti ilə birlikdə ayda bir dəfədən az olmayaraq sosial adaptasiyaya ehtiyacı olan cəza çəkməkdən azad ediləcək şəxsləri müəyyən edir və bu şəxsləri onların razılığı ilə qeydiyyata götürür. Qeydiyyata götürülmüş şəxslərə onların hüquq və azadlıqları, sosial adaptasiya tədbirlərinin məzmunu və həyata keçirilməsi qaydası izah olunur. Penitensiar müəssisələrdə sosial adaptasiya məqsədilə qeydiyyata götürülməmiş şəxslər, habelə digər dövlətlərdə cəza çəkməkdən azad edilmiş və Azərbaycan Respublikasına daimi yaşamaq üçün qayıtmış Azərbaycan Respublikasının vətəndaşları üç ay ərzində ərizələrinə əsasən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən qeydiyyata alınırlar.

Qanunun 8-ci maddəsinə əsasən sosial adaptasiya müddəti bir il müəyyən edilmişdir. Müstəsna hallarda Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyininqərarı əsasında bu müddət daha bir ilədək uzadıla bilər. Sosial adaptasiya müddəti cəza çəkməkdən azad edilmiş şəxsin qeydiyyata götürüldüyü gündən hesablanır [4].

Hər bir cəza çəkməkdən azad edilmiş şəxsin sosial adaptasiyasının təşkili özünəməxsusdur. Belə ki, cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyasının davam etmə müddətinə aşağıdakı faktorlar təsir edir: a) cəza çəkməkdən azad edilmiş şəxslərin fərdi xüsusiyyətləri; b) ətraf mühit və sosial aləm; c) şəxsin davranışına ictimai təsirin forma və intensivliyi. Qeyd edə bilərik ki, sosial adaptasiya prosesində bu faktorlar çətinlik yarada bilər.

Sosial adaptasiya anlayışına bağlı olaraq müzakirə edilən ən əsas məsələzamandır. Belə ki, cəza çəkməkdən azad edilmiş şəxsin nə qədər müddətə cəmiyyətə uyğunlaşa biləcəyini müəyyən etmək mümkün deyil.  Bu səbəbdən də sosial adaptasiya ilə bağlı qanunvericilikdə göstərilən müddət o qədər də reallığa uyğun deyil.

Həmçinin, Azərbaycan Respublikası Ədliyyə Nazirinin 25 iyun 2008-ci il tarixli əmri ilə təsdiq edilmiş Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti haqqında əsasnamənin penitensiar müəssisənin fəaliyyət istiqamətlərinə(maddə 8.6) və xidmətlərinə (maddə 9.14) penitensiar müəssisələrdə cəza çəkməkdan azad edilmiş şəxslərin reabilitasiyası və sosial adaptasiyasına köməklik göstərmək daxildir [2].

Bu yarımfəsildə qeyd olunanları ümümiləşdirərək aşağıdakıları göstərmək olar:

1. Hər bir cəza çəkməkdən azad edilmiş şəxsin sosial adaptasiyasının təşkili özünəməxsusdur. Bu baxımdan bir neçə məsələ sosial adaptasiya prosesində çətinlik yarada bilər. Sosial adaptasiya anlayışına bağlı olaraq müzakirə edilən ən əsas məsələ zamandır. Belə ki, cəza çəkməkdən azad edilmiş bir şəxsin nə qədər müddətə cəmiyyətə uyğunlaşacaq hala gələ bilməsini müəyyən etmək mümkün deyil. Bu səbəbdən də sosial adaptasiya ilə bağlı qanunvericilikdə göstərilən müddət o qədər də reallığa uyğun deyil.

2. Cəza çəkməkdən azad edilmiş şəxs uğurlu adaptasiya olunduqda məhkumluq sosial-hüquqi mənada başa çatır. Bu baxımdan Azərbaycanda cəza çəkməkdən azad edilmiş şəxslərin ilk növbədə yenidən təkrar cinayət törədərək həbsxanaya girməsinin qarşısının alınması məqsədilə həmin şəxslərin sosial adaptasiyanın həyata keçirilməsi kriminogen vəziyyətin yaxşılaşmasına, cinayətkarlığın profilaktikasına ciddi təsir göstərə bilər.

3. Cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası sosial təminat, məşğulluq orqanları və ictimai təşkilatların müvafiq yardımı və dəstəyi olmadan qeyri-mümkündür. Cəza çəkməkdən azad edildikdən sonra həmin şəxslərin normal həyat tərzi keçirmələrinə şərait yaradan sosial-hüquqi statusa malik olmaları zəruri şərtdir. Belə statusun təmin edilməsində isə göstərilən orqan və təşkilatların üzərinə mühüm iş və funksiyalar düşür. Bu baxımdan cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası ilə bağlı problemlər penitensiar müəssisələr, daxili işlər orqanları, sosial yönümlü ictimai təşkilatlar və məşğulluq birgə əməkdaşlığı şəraitində daha səmərəli həll oluna bilər. Eyni zamanda, cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası prosesində dövlət orqanlarının koordinasiyası mühüm rol oynayır. Əks halda, cəza çəkməkdən azad olan şəxslər sosial yardımsız qalırlar.

## Biblioqrafiya

1. Avropa Penitensiar Qaydaları. [Elektron mənbə]. URL: http://www.justice.gov.az/ categories/103 (müraciət tarixi: 11.02.2020).

2. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti haqqında Əsasnamə. [Elektron mənbə]. URL: http://penitensiar.justice.gov.az/ (müraciət tarixi: 14.02.2020).

3. Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqlarının müdafiəsi mexanizmləri. [Elektron mənbə]. URL: http://anl.az/el/Kitab/2015/1999-1221.pdf (müraciət tarixi: 18.02.2020).

4. Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu. [Elektron mənbə]. URL: http://www.e-qanun.az/ framework/13556 (müraciət tarixi: 11.02.2020).

5. Бриллиантов А.В., Курганов С.И. Уголовно-исполнительное право: в вопросах, ответах и схемах: Учебное пособие. М.: Проспект, 2009, 224 с.

6. Гречанюк С.К. Організаційно-правові засадив заємодії кримінально-виконавчих установ здержавними органами та недержавними організаціями. Киев, 2006, 253 с.

7. Головченко И.Х., Михайленко П.П. Раскрытие преступлений и борьба с рецидивом : На материалах УССР // Советское государство и право, 1965, № 4, с. 55-64.

8. Селиверситова В.И. Уголовно-исполнительное право: Учебник. М.: Проспект, 2009, 400 с.

9. Уголовно-исполнительное право. Конспект лекций / Под ред. И.А.Коговалова. М.: МИЭМП, 2004, 43 с.

**Alizade C. Sh.** ♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2020.62.21-30**
**UDC: 309.8**

## Problems of social adaptation of persons freed from punishment in penitentiary institutions

**Abstract:** Community integration programs for people released from prisons are designed to prevent these individuals from committing crimes and to provide the support and supervision they need to avoid re-committing a criminal offense. It can be noted that the concepts of “social adaptation” and “rehabilitation” are important as an important means of integrating people released from prisons into society. Thus, although social adaptation acts as an important mechanism for the socialization of the individual, rehabilitation is a reflection of the already lost workforce.

Reform of convicted persons is an important condition in terms of living as an equal citizen of society after liberation.The concept of social adoration refers to the activities carried out to lead a life worthy of human dignity without committing a crime again after the release of the convicted person. The German Constitutional Court reiterates the social name as being a part of society.Work experience in the penitentiary system shows that the increase in relapse crimes directly depends on the social adaptation of released persons to the changed living conditions.

**Keywords**: persons exempted from serving punishment in penitentiary institutions; integration process; social adaptation.

### References

1. *Avropa Penitensiar Qaydalari*. [European Penitentiary Rules]. Available at: http://www.justice.gov.az/categories/103 (accessed 11.02.2020).

2. *Azerbaycan Respublikasi Adliyye Nazirliyinin Penitensiar Xidmeti haqqinda Esasname* [Regulations on the Penitentiary Service of the Ministry of Justice of the Republic of Azerbaijan]. Available at: http://penitensiar.justice.gov.az/ (accessed 14.02.2020).

3. *Birleşmish Milletlər Teshkilatinin Insan Huquqlarinin mudafiesi mexanizmleri* [United Nations Human Rights Protection Mechanisms]. Available at: http://anl.az/el/Kitab/2015/1999-1221.pdf (accessed 18.02.2020).

4. *Penitensiar mueəssiselerde ceza chekmekden azad edilmish shexslerin sosial adaptasiyasi haqqinda” Azerbaycan Respublikasinin Qanunu* [Law of the Republic of Azerbaijan on Social Adaptation of Persons Released from Penalty in Penal Institutions]. Available at: http://www.e-qanun.az/framework/13556 (accessed 11.02.2020).

5. Brilliantov A.V., Kurganov C.I. *Ugolovno-ispolnitel’noe pravo: v voprosakh, otvetakh i skhemah.* Uchebnoe posobie [Executive Penal Law: in questions, answers and schemes: Teaching aid]. Moscow, Prospect Publ., 2009, 224 p.

♦**Alizade Javid Shirzad oglu** – II year master student of the Azerbaijan University, Azerbaijan. E-mail: cavid6455@mail.ru

6. Grechanyuk S.K. Organizational and legal bases of interaction of penal institutions with state bodies and non-governmental organizations. Kiev, 2006, 253 p. (in Ukrainian).

7. Golovchenko I. Kh., Mikhailenko P.P. *Raskrytie prestupleniy i bor'ba s retsidivom: na materialah USSR* [Crime disclosure and the fight against recidivism: On the materials of the USSR]. *Sovetskoe gosudarstvo i pravo - Soviet State and Law*, 1965, no. 4, pp. 55-64.

8. Seliversitova V.I. *Ugolovno-ispolnitel'noe pravo.* Uchebnik [Seliverstova V.I. Criminal Enforcement Law. Textbook]. Moscow, Prospect Publ., 2009, 400 p.

9. *Ugolovno-ispolnitel'noe pravo. Konspekt lektsii* / pod red. I.A. Kogolova [Criminal executive law. Lecture notes; ed. by I.A. Kogovalov]. Moscow, MIEMP Publ., 2004, 43 p.

**Ализаде Д.Ш.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2020.62.21-30**
**УДК: 309.8**

## Проблемы социальной адаптации лиц, освобожденных от наказание в пенитенциарных учреждениях

**Аннотация:** Программы интеграции в общество лиц, освобожденных от наказания в пенитенциарных учреждениях, направлены на то, чтобы избежать преступлений этих лиц, а также обеспечить помощь и контроль, которые могут понадобиться для повторного совершения преступления. Можно отметить, что понятия «социальная адаптация» и «реабилитация» важны как важное средство интеграции лиц, освобожденных из пенитенциарных учреждений, в общество. Таким образом, хотя социальная адаптация выступает в качестве важного механизма социализации личности, реабилитация является отражением уже утраченной рабочей силы

Социальная адаптация с точки зрения реформирования осужденных лиц выживания общества как равноправного гражданина после выхода на свободу является важным условием. Понятие социальной адаптации означает деятельность, осуществляемую для того, чтобы лицо, отбывающее наказание после освобождения снова прожило достойную жизни в честь человека без совершения преступления.

**Ключевые слова:** лица, освобожденных от наказания в пенитенциарных учреждениях; процесс интеграции; социальная адаптация.

## Библиография

1. Европейские пенитенциарные правила [Электронный ресурс]. Режим доступа: http://www.justice.gov.az/categories/103 (дата обращения: 11.02.2020) (на азерб. яз).
2. Положение о Службе исполнения наказаний Министерства юстиции Азербайджанской Республики [Электронный ресурс]. Режим доступа: http://penitensiar.justice.gov.az/ (дата обращения: 14.02.2020) (на азерб. яз.).
3. Механизмы защиты прав человека Организации Объединенных Наций [Электронный ресурс]. Режим доступа: http://anl.az/el/Kitab/2015/1999-1221.pdf (дата обращения: 18.02.2020) (на азерб. яз.).
4. Закон Азербайджанской Республики «О социальной адаптации лиц, освобожденных от отбывания наказания в исправительных учреждениях» [Электронный ресурс]. Режим доступа: http://www.e-qanun.az/framework/13556 (дата обращения: 11.02.2020) (на азерб. яз.).
5. Бриллиантов А.В., Курганов С.И. Уголовно-исполнительное право: в вопросах, ответах и схемах: Учебное пособие. - М.: Проспект, 2009. - 224 с.
6. Гречанюк С.К. Організаційно-правові засадив заємодії кримінально-виконавчих установ здержавними органами та недержавними організаціями. - Киев, 2006. - 253 с.

♦**Ализаде Джавид Ширзад оглы** – магистрант II курса Университета Азербайджан. E-mail: cavid6455@mail.ru

7. Головченко И. Х., Михайленко П.П. Раскрытие преступлений и борьба с рецидивом : На материалах УССР // Советское государство и право. - 1965, - № 4. - С. 55-64.

8. Селиверситова В.И. Уголовно-исполнительное право: Учебник. - М.: Проспект, 2009. - 400 с.

9. Уголовно-исполнительное право. Конспект лекций / Под ред. И.А.Коговалова. - М.: МИЭМП, 2004. - 43 с.